## Azərbaycan manatı dayanıqlı valyutaya çevrilib

2012-ci ilin I yarısında Mərkəzi Bank (MB) öz siyasətini qlobal iqtisadiyyatda gərginliyin qalması, Avrozonadakı böhranın monetar birliyin gələcəyi üçün risk yaratması, beynəlxalq investisiya axınlarının azalması, dünya maliyyə və əmtəə bazarlarında volatillik şəraitində həyata keçirmişdir.

Mürəkkəb qlobal mühitdə Azərbaycanda makroiqtisadi sabitlik qorunmuş, iqtisadi artım davam etmiş, qeyri-neft sektoru artımın əsas mənbəyinə çevrilmişdir. Strateji valyuta ehtiyatlarının artmaqda davam etməsi ölkənin iqtisadi dayanıqlığını daha da yüksəltmişdir. Bu barədə Mərkəzi Bankın pul siyasəti icmalında qeyd edilib. İcmalda həmçinin vurğulanıb ki, cari ilin 6 ayı ərzində Mərkəzi Bank öz fəaliyyətini pul və maliyyə sabitliyi siyasətinin bəyan olunmuş başlıca istiqamətlərinə uyğun olaraq inflyasiyanın birrəqəmli səviyyədə saxlanılması, manatın məzənnəsinin sabitliyi, bank-maliyyə sektorunda inkişafın və dayanıqlığın möhkəmləndirilməsi, ödəniş sistemlərinin etibarlı və fasiləsiz fəaliyyəti kimi hədəflərin realizasiyasına yönəltmişdir. Mərkəzi Bankın hökumətlə birgə həyata keçirdiyi siyasət nəticəsində dövr ərzində inflyasiya təkrəqəmli səviyyədə saxlanılmış, makro-maliyyə sabitliyinin mühüm amili olan manatın mübadilə məzənnəsi sabit qalmış, bank sistemi iqtisadi artımı dəstəkləməkdə davam etmişdir.

Həmçinin qeyd edilmişdir ki, iyul ayının 1-nə olan tarixə geniş pul kütləsi ötən ilin müvafiq dövrünə nəzərən 27.3% artaraq 14528 mln manata çatmış, manatla geniş pul kütləsi isə 34.6% artaraq 11754 mln. manata yüksəlmişdir. Geniş pul kütləsinin artımı həm nəğd, həm də qeyri-nəğd pulun artımı hesabına baş vermişdir.

Mərkəzi Bankdan bildirilir ki, MB nağd pula olan tələbatının dolğun şəkildə ödənilməsini, nağd pul dövriyyəsinin effektiv idarə olunmasını uğurla həyata keçirir. Ölkə iqtisadiyyatının, eləcə də bank və ödəniş sistemlərinin dinamik inkişafı milli valyutaya olan inamın artmasına, onun regional miqyasda cəlbedici valyutaya çevrilməsinə gətirib çıxarmışdır. Azərbaycan manatının regionda ən dayanıqlı və etibarlı valyutaya çevrilməsi onun ödəniş və yığım funksiyasını gücləndirmişdir. Son 10 il ərzində ölkədə dollarlaşma əhəmiyyətli dərəcədə azalmış, manatla olan əmanətlərin xüsusi çəkisi 2 dəfədən çox artmışdır.

Son 20 il ərzində Mərkəzi Bank tərəfindən nağd pul tədavülünün təşkili sahəsində bir çox institutsional islahatlar həyata keçirilmiş, idarəetmə sistemləri müasirləşdirilmiş və yeni keyfiyyət mərhələsinə qaldırılmışdır. Belə ki, nağd pul idarəetməsinin hüquqi və institutsional bazası inkişaf etdirilərək müasir təcrübəyə uyğunlaşdırılmışdır. Yüksək təhlükəsizlik standartlarına cavab verən müasir xəzinə infrastrurkturları yaradılmış, avtomatlaşdırma səviyyəsi yüksəldilmişdir. Eləcə də, regional idarəetmə sistemləri beynəlxalq təcrübəyə uyğun otimallaşdırılmış, müasir tələblərə cavab verən Regional və Ehtiyat Mərkəzləri yaradılmışdır.

Həmçinin bildirilir ki, Mərkəzi Bank nağd pula olan tələbatının ödənilməsi ilə yanaşı, «Tədavüldə təmiz pul siyasəti»ni bəyan etmiş və dövriyyədə olan pul nişanlarının keyfiyyətinin yüksək səviyyədə saxlanılmasını təmin etmişdir. Bankın qarşısında duran əsas strateji hədəflərdən biri «Nağd pulun idarə edilməsinin ən müasir standartlarının formalaşdırılması»dır ki, bu çərçivədə qabaqcıl standartlara uyğun nağd pulun yeni idarəetmə sisteminin formalaşdırılması və tam avtomatlaşdırılmış modern xəzinə infrastrukturunun yaradılması nəzərdə tutulur. Bununla əlaqədar olaraq artıq Mərkəzi Bank tərəfindən ən son texnologiyalar əsasında tam avtomatlaşdırılmış Nağd Pul Mərkəzinin yaradılması, nağd pulun idarə edilməsinin menecment informasiya sistemlərinin, pul nişanlarının müasir dizayn, loqistika və ekpertizası institutlarının, habelə yeni hesabatlıq sisteminin və iqtisadi təhlil bazasının yaradılması kimi layihələrin realizasiyasına başlanılmışdır. Eyni zamanda, Mərkəzi Bank milli valyutada pul nişanlarının etibarlığını və cəlbediciliyini yüksək səviyyədə saxlamaq üçün müasir tələblərə cavab verən növbəti nəsil pul nişanlarının dizayn və mühafizə fəlsəfəsinin hazırlanması ilə əlaqədar müvafiq layihənin realizasiyasına başlamışdır.

AYTƏN